AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 12-22
https://doi.org/10.59849/2664-5432.2026.2.12

Baba MƏHƏRRƏMLİ*

ŞUMER DİLİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

XÜLASƏ

Dünya dilçiliyində qəbul olan fikirlərə əsasən, şumer dili ən qədim dillərdən biri hesab olunur. Bu dilin beş min il yaşının olduğu güman edilir. Şumer dili qədim şumer dili və sonrakı şumer dilinə (yazılı şumer dilinə) ayrılır. Şumer yazılarının gil üzərində kəşfi dünya sivilizasiyasının qədim tarixinin öyrənilməsi üçün mühüm hadisə oldu. Şumerlər dünya sivilizasiyası tarixində ən qədim mədəniyyət yaratmış xalqlardan biridirlər. Onların gil lövhələr üzərində yazdıqları yazılar ən qədim yazı nümunələri hesab olunur. Yəni şumer yazıları ilk mixi yazılardan sayılır. Şumer yazıları ideoqramlar şəklindədir. İlk dəfə qədim şumer yazıları XIX əsrin sonlarında deşifrə olunmuş və oxunmuşdur. Şumerlər vaxtilə indiki İraqın cənubunda yerləşən Mesopotamiya ərazisində yaşamışlar.

Açar sözlər: *şumer, dil, tədqiq, türkologiya, əlaqə*

Şumer dilinə aid ən qədim yazılı mətnlər eradan əvvəlki IV-III minilliklərə aiddir. Ehtimal olunur ki, təxminən bizim eradan 2000 il əvvəl şumer danışıq dili akkad dilinin təsiri ilə assimilyasiya olunmuş, aradan çıxmışdır, ancaq yazılı şumer dili o zamana aid rəsmi mətnlərdə, sənədlərdə bir müddət işlənmişdir. Sonralar tədricən şumer yazılı dili də akkad dilinin təsiri ilə aradan çıxmışdır [Канева: 2006, s.7]. Şumer yazılarının kəşfi akkad mətnlərinin oxunması ilə bağlıdır. Belə ki, XIX əsrin sonlarında akkad mətnləri oxunarkən bəzi mətnlərin akkad dilinə uyğun gəlmədiyi müəyyən olundu. Eyni zamanda, bəzi ideoqramların (loqoqramların) bir sözə və yaxud anlayışa uyğun gəldiyi müəyyənləşdirildi. Həmin ideoqramların bu üsulla ifadə etdiyi anlamların müəyyənləşdirilməsi şumer yazılarının oxunmasına gətirib çıxardı, çünki akkad yazılarında bu cür ideoqramlar bütöv sözə və ya anlayışa uyğun gəlmirdi. İrland alimi E.Hinks tərəfindən ilk dəfə şumer ideoqramları oxunmağa başlandı. Bu fərqli yazılar bir müddət akkad dilinə aid hesab olunsa da, XIX əsrin tam sonunda bu yazıların fərqli bir dilə aid olması sübut edildi və həmin yazıların aid olduğu dil şumer dili adlanmağa başlandı [Канева: 2006, s.7]. XIX əsrin sonlarında, 1898-ci ildə F.H.Veysbax şumer dilinin müstəqil dil olması haqqında monoqrafiya yazdı. XX əsrin əvvəllərində isə şumer dilinin qrammatikası ilə bağlı F.Tyure-Danjen tərəfindən 1905-ci ildə və A.Poebel

* AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, dosent, Türk Dil Qurumunun müxbir üzvü. Email: baba_magerramli@mail.ru

tərəfindən 1923-cü ildə ilk əsərlər yazıldı. Beləliklə, şumerşünaslığın əsası qoyuldu. Ümumiyyətlə, şumer yazılarının deşifrə olunmasında J.Oppert, H.Ravlinson, C.Smit, E.Hinks kimi alimlər mühüm rol oynamışlar. İndiyə qədər məşhur şumeroloqlar A.Vayman, V.K.Afanasyeva, Y.Braun, S.N.Kramer, F.Hommel, İ.M.Dyakonov, V.V.Struve və digərləri şumerlər haqqında kompleks araşdırmalar aparmış və bu dili hərtərəfli tədqiq etmişlər.

Tarixçi Y.Yusifov yazır ki, İkiçayarasının cənubunda qədim əhali şumerlər idi. Adətən İkiçayarasında şumerlərdən əvvəl meydana gəlmiş mədəniyyətin yaradıcısını protoşumer (ilkin, erkən şumerlər), yaxud ubayidlər (əl-Übeyid arxeoloji mədəniyyətinə əsasən) adlandırırlar. Şumerlər isə gəlmə xalq hesab olunur. Ehtimala görə, şumerlər burada e.ə. IV minilliyin əvvəlində, yaxud ikinci yarısında məskunlaşmışlar" [Yusifov: 2007, s.52].

Ön Asiyanın qədim dilləri ilə bağlı İ.M.Dyakonovun araşdırmaları xüsusi əhəmiyyət kəsb edir. İ.M.Dyakonov həm də məşhur şumeroloqdur. Onun şumer dilinə aid bir sıra məqalələri var. İ.M.Dyakonov "Ön Asiyanın qədim dilləri" adlı monoqrafiyasında şumer dili haqqında ətraflı bilgi verir. İ.M.Dyakonov bildirir ki, şumer, elam, xurrit və urartu dilləri tipoloji cəhətdən iltisaqi dillərə aiddir [Дьяконов:1967, s.29]. İ.T.Kaneva da "Şumer dili" adlı monoqrafiyasında şumer dilinin tipoloji cəhətdən açıq-aydın şəkildə iltisaqi quruluşlu olduğunu təsdiqləyir [Канева: 2006, s.27]. A.H.Jagersma tərəfindən 1955-ci ildə yazılmış "Şumer dilinin təsviri qrammatikası" adlı monorqafiyada şumer dilinin qrammatikası təhlil edilmişdir [Jagersma:1955]. Danimarka dilçisi M.L.Tomsenin 1984-cü ildə Kopenhagen şəhərində nəşr olunan "Şumer dili" monoqrafiyasında şumer dilinin bir çox incəliklərinə nəzər salınmışdır. M.L.Tomsenin bu monoqrafiyasında şumer dilinin qrammatikası, əsas nitq hissələri ilə yanaşı olaraq, köməkçi nitq hissələri də təhlil olunmuşdur [Thomsen: 1984, s.9-241]. Vaxtilə şumer dilini kompleks şəkildə ilk dəfə tədqiq edən və şumer tarixinə obyektiv yanaşan dünyada tanınmış şumeroloq S.N.Kramer "Şumer mifologiyası" əsərində "Tarix şumerdən başlayır" deyirdi [Kramer: 1999, s.17]. Dünyada ilkin sivilizasiyalardan biri kimi şumerlər və onların tarixi hər zaman şərqşünasların, tarixçilərin, dilçilərin, ədəbiyyatçıların, arxeoloqların xüsusi maraq dairəsində olmuşdur. Şumer dilinin ən böyük bədii abidələrindən olan "Gilqamış" eposu ən qədim epik örnəklərdən sayılır.

XX əsrin əvvəllərində, 1926-cı ildə F.Hommel "Şərqin etnologiyası və coğrafiyası" əsərində ilk dəfə olaraq şumer dilinin Ural-Altay dilləri ilə qohumluğu fikrini irəli sürmüşdür. F.Hommel şumer dilinə aid 350-ə yaxın sözü türk dillərinin materialları ilə müqayisə etmişdir. Sonradan bu ideya sovet tarixçisi S.P.Tolstov tərəfindən dəstəklənmiş, ancaq sovet hakimiyyətinin senzurasına, qadağalarına görə bu məsələyə uzun müddət toxunulmamışdır, şumer mövzusu qapalı qalmışdır [Аманжолов:1974, s.278]. Doğrudur, bir çox alimlər şumer dilinin hər hansı bir dillə qohumluğunu inkar edirlər. Məsələn, İ.M.Dyakonov yazırdı ki, dünyada elə bir dil yoxdur ki, o, şumer dili ilə qohum olsun. Digər tərəfdən, İ.M.Dyakonov şumer dilinin Qafqaz dilləri ilə struktur cəhətdən bir qədər bənzər olduğunu gös-

tərirdi [Дьяконов:1967, s.84]. İ.Kaneva da şumer dilinin hər hansı bir dil ailəsi ilə qohumluğunu inkar etmiş, şumer dilini izolyasiya olunmuş bir dil kimi səciyyələndirmişdir. Qədim dillərin deşifrə olunması haqqında monoqrafiya yazan alman alimi Fridrix Yoqannes də şumer dilinin mənşəyinin aydın olmadığını qeyd edir [Йоганнес: 1961, s.45]. S.Starostin də şumer dilini qapalı bir dil kimi xarakterizə edir. Onun fikrincə, bask, şumer, ayn kimi dillər izolyasiya olunmuş dillərdir [Старостин: 2007, s. 408].

XX əsrin əvvəllərinə qədər şumer dilinə aid nümunələr az çap olunmuşdu. XX əsrin əvvəllərindən isə şumer dilinə aid materialların çap olunması geniş vüsət aldı və bu materiallarla tanışlıq şumer dilinin mənşəyi ilə bağlı yeni fikirlərin, ideyaların yaranmasına səbəb oldu. 1908-ci ildə Almaniyada Prins Con Dinleyein "Şumer dilinə aid materiallar" kitabı çıxandan sonra şumer dilinin leksik tərkibi, şumer dilinin mənşəyi haqqında müxtəlif fikirlər, ehtimallar söylənilməyə başlanıldı [Materials for a Sumerian Lexicon: 1908]. 1967-ci ildə məşhur sovet şərqşünası və tarixçisi İ.M.Dyakonovun "Ön Asiyanın qədim dilləri" əsəri çap olundu və həmin əsərdə şumer dilinə aid çoxlu nümunələr verildi [Дьяконов**:** 1967]. Həmin əsərdəki leksik materiallar sovet türkoloqlarının diqqətini cəlb etdi. Nəticədə, bu mövzu ilə bağlı SSRİ-də qazax türkoloqu A.S.Amonjolovun və qazax yazıçısı O.Süleymenovun mühüm elmi əhəmiyyət kəsb edən tədqiqatları yarandı. Sovet türkologiyasında ilk dəfə olaraq şumer-türk leksik paralelliklərindən məşhur qazax türkoloqu A.S.Amonjolov 1974-cü ildə Berlində nəşr etdirdiyi "Şumer-türk uyğunluqları və təsviri loqoqramlar" adlı məqaləsində bəhs etmişdir [Аманжолов: 1974, s.65-71]. O zamanlar bu məqalə türkologiyada böyük əks-səda doğurmuşdu. Həmin əsərin təsiri nəticəsində qazax yazıçısı Oljas Süleymenovun 1975-ci ildə "Az-ya" əsəri ərsəyə gəldi. Bu əsərdə Oljas Süleymenov şumer-türk leksik paralellərinə aid 60 nümunə verir və bu sözlərin eyni mənşəli oduğunu bildirir. O, şumer və türk leksikasının qısa müqayisəli cədvəli adı altında təqdim edir. Oljas Süleymenov bu sözləri insan qrupu, təbiət qrupu, tanrı qrupu adı ilə təsnif etmişdir. O.Süleymenovun fikrincə, "türk sözlərinin yüksəkdavamlılığı məhz morfoloji sxemin sabitliyindən irəli gəlir. Bura tarixi səbəbləri – məişətin (köçərilik) və dinin (tenqrilik-əcdad kultu) konservatizmini də əlavə etmək olar. Köçəri sürətlə çapırdı, vaxt-zaman isə yerində dayanmışdı. Köçəri onlarla etnosla təmasa girir, öz dünyasını zənginləşdirir, lakin onun özülünə toxunmurdu" [Süleymenov:1993, s.179].

İndiyə qədər bir çox tanınmış tarixçi, şərqşünas və dilçilərin fikrinə görə, şumer dili ilə türk dillərinin mənşəyi birdir. Doğrudur, bəzi alimlər şumer dilinin türk dillərinə bağlanmasını etnosentrizmlə əlaqələndirirlər. Halbuki şumer dilinin türk mənşəyi kifayət qədə sübuta yetirilmişdir. Ancaq Avropa tədqiqatçıları bu məsələyə həmişə qısqanclıqla yanaşırlar. Maraqlıdır ki, bu genetik əlaqəni hind-Avropa mənşəli dilçilər arasında səsləndirənlər də olmuşdur. Lakin onların bu dəyərli fikirləri çox zaman məqsədli şəkildə gizlədilir. Məsələn, XIX əsr Kazan dilçilik məktəbinin görkəmli nümayəndəsi Boduen de Kurtene "Dilçilik və ya linqvistika

XIX əsrdə" adlı yazısında qeyd edir ki, XIX əsrin ikinci yarısında akkad və şumer yazılarının (keçmiş Xaldey ərazisində) deşifrə olunması bizə haqq verir ki, onların Ural-Altay və ya Turan dilləri ilə genetik əlaqələrinin olduğu fikrini qəbul edək. Bu dillər Ural-Altay və ya Turan dillərinin qədim nümayəndələridir, sadəcə, onlar morfoloji quruluşlarına görə fərqlidir [Куртенэ: 1963, s.10]. Maraqlıdır ki, Boduen de Kurtenenin bu fikri heç yerdə və heç bir əsərdə səsləndirilməmişdir. Halbuki bu cür böyük alimin şumer və akkad dillərini türk dillərinin əcdadı kimi görməsi fikri türkologiya üçün çox əhəmiyyətli və dəyərlidir. Doğrudur, akkad dili sami mənşəli dildir, yəni indiki ərəb dilinin əcdadı sayıla bilər, flektiv quruluşlu olmuşdur. Ancaq şumer dilinin türk dillərinin əcdadı olması ehtimalı çox inandırıcıdır. Şumer-türk dillərinin homogenliyini sübut etmək üçün yüzlərlə dil faktı göstərmək mümkündür.

F.Hommel, O.N.Tuna, A.Məmmədov, A.S.Amonjolov, B.Atalay, S.Diker, O.Süleymenov, İ.M.Miziyev və digərləri şumer-türk leksik paralellikləri ilə bağlı dəyərli araşdırmalar aparmışlar. Alman alimi F.Hommel ilk dəfə olaraq şumer-türk bağlılığından bəhs etmişdir. F.Hommel şumerlərin Mərkəzi Asiyadan gəlməsi və şumer dilinin Altay dilləri ilə qohum olması müddəasını müdafiə etmiş və bir çox şumer-türk sözlərinin qarşılıqlı müqayisəsini vermişdi. Bir neçə oxşar sözləri çıxmaq şərtilə, qalan şumer sözlərinin ya oxunuşu köhnəlmişdir, ya da onların eyni mənşəli olmasını sübut edə bilən fonetik qanunauyğunluq göstərilməmişdi. Hazırda da şumer dilinin Altay dil ailəsinə fərzən daxil edilən türk dilləri ilə qohum olması müddəasını təkrar edirlər. Orta Asiya dilçisi A.S.Amonjolov iyirmidən artıq şumer sözünün türk sözləri ilə oxşarlığını fonetik qanunauyğunluqlar əsasında açıb göstərmişdir [Yusifov: 2007, s.56].

Oljas Süleymenov düzgün olaraq qeyd edir ki, şumer dili ilə türk sözlərinin etimoloji yaxınlığını türk sözlərin praformaları əsasında sübut etmək mümkündür [Süleymenov:1993, s.194-202]. A.S.Amonjolov da həmin fikri irəli sürür. Həmin ideyanı Azərbaycan dilçiliyində Q.Kazımov və B.Məhərrəmli də dəstəkləyirlər. Yəni müasir türk dillərinin materialları şumer dilinin materialları müqayisə olunarkən ilkin söz köklərinin praformaları tədqiqata cəlb ediləndə mənzərə daha aydın olur və şumer-türk genetik qohumluğa daha aydın nəzərə çarpır. A.S.Amonjolov 1974-cü ildə Berlində nəşr etdirdiyi "Şumer-türk uyğunluqları və təsviri loqoqramlar" adlı məqaləsində iyirmi dörd şumer sözünün türk dilləri ilə leksik paralellik təşkil etdiyini göstərir. Türkoloq həmin sözləri bu ardıcıllıqla verir:

1. Dingir "tanrı"; 2. Dumu "oğul, övlad"; 3.Ud "gün,vaxt"; 4. Dug "yaxşı"; 5. Utu "günəş"; 6. Egır "arxa, dal"; 7. Is "silahdaşıyan"; 8. U "yuxu"; 9. Ug "tayfa"; 10. Barag "məbəd"; 11. Nig "əşya, yük" veş; 12. Tag "toxunmaq"; 13. Kug "təmiz"; 14. Sug "bataqlıq"; 15. Sag "baş, başçı"; 16. Il "ilişdirmək, bağlamaq"; 17. Gud "öküz"; 18. Gıg "xəstəlik"; 19. Gag "ucluq"; 20. Gış "ağac"; 21. Sal "qadın cinsi orqanı"; 22. Erin "döyüşçü"; 23. Er "kişi"; 24. Sıla "quzu".

Türkoloq bu sözləri türk dillərindəki analoji sözlərlə qarşılaşdırarkən türk dillərinin tarixi fonetikasındakı qanunauyğunluqlara da istinad edir. A.S.Amonjolov şərhlərini səs keçidləri əsasında verir. Onun fikrincə, "sistem təşkil edən bu cür fonoloji qanunauyğunluq bu sözlərin eyniməşədən yarandığını isbat edir. Alim *s~y, n~y, d~y, s~c, s~l, r~z, d~t, z~s, b~m, z~ç* tipli səs keçdiləri ilə şumer sözlərinin türk sözləri ilə homogenliyini təsdiqləmiş olur" [Аманжолов: 1974, s.280-282]. Qazax türkoloqu E.Z.Kajibekovun araşdırmalarında da şumer dilindəki materiallardan istifadə edilmişdir. Onun "Türk dillərində homogen korrelyativ söz kökləri" adlı monoqrafiyasında şumer dilindəki analoji sözlərdən istifadə olunmuşdur [Кажибеков: 1986]. Göründüyü kimi, qazax dilçiliyində şumer-türk bağlılığı ilə əlaqədar kifayət qədər böyük işlər görülmüşdür. Oljas Süleymenov "Az-ya" əsərində qeyd edir ki, mənim fikrimcə, türk dilləri ən qədim dövrlərdə şumer və monqol dilləriylə, çox-çox sonralar isə ərəb dili ilə mədəni qohumluq əlaqələrində olmuşdur. Özü də sonrakı mədəni təsir qədim təsirin nəticələrini heç də büsbütün aradan götürə bilməmiş, bir növ yeni qat yaradaraq, onu görünməz etmiş, arxa plana sıxışdırmış, lakin dediymiz kimi, məhv edə bilməmişdir. Dilin bu qəribə xüsusiyyəti (çoxqatlılıq) qazax dilində Allah-Tenqri terminində özünü göstərmişdir [Süleymenov: 1993, s.192-193].

Şumer-türk əlaqələri ilə bağlı Türkiyədə də sanballı araşdırmalar aparılmışdır. Türk dilçisi Besim Atalay 1941-ci ildə yazdığı "Türk dilində ekler və köklər üzerine bir deneme" ("Türk dilində kök və şəkilçilər haqqında bir təcrübə") adlı əsərində şumer dilində işlənən bir çox söz köklərinin türk dilindəki sözlərin etimoloji əsasında durduğunu göstərir. Məsələn, o, qədim şumer dilində işlənən *a* sözünün, daha doğrusu *a* ideoqramının türk dillərindəki *ata, aş* sözlərinin mənşəyində dayandığını göstərir [Atalay: 1941, s.9]. Türkiyədə şumer dili ilə ən çox Orxan Nedim Tuna məşğul olmuşdur. Onun 1997-ci ildə Ankarada nəşr olunan "Şumer və türk dillərinin tarixi ilgisi və türk dilinin yaşı məsələsi" əsəri bu sahədə yazılmış ən dəyərli araşdırmalardan biridir. Müəllifin qırx illik araşdırmalarının nəticəsi kimi ortaya çıxan bu əsərdə Orxan Nedim Tuna şumer dili ilə türk dilləri arasında 32 səs uyğunluğunu müəyyənləşdirdiyini, həmin əsərdə isə yalnız 16 səs uyğunluğundan bəhs etdiyini göstərir. Türkoloq müvafiq səs uyğunluqları ilə şumer dilindəki 165 sözün türk dillərinin lüğət tərkibindəki sözlərlə qohumluğunu isbat edə bilmişdir. Türkoloq haqlı olaraq qeyd edir ki, bu qədər sözün hə fonetik, həm də semantik uyğunluğu təsadüfi xarakter daşıya bilməz. Riyazi məntiq cəhətdən də bu uyğunluq təsadüfi sayıla bilməz [Tuna: 1997, s.4]. Beləliklə, Orxan Nedim Tuna həm fonetik, həm də leksik-semantik uyğunluqlarla şümer-türk leksik paralelliklərinin heç də təsadüfi olmadığını bir daha sübut etmişdir. Tanınmış türk tarixçisi Zeki Velidi Toğan 1981-ci ildə nəşr etdirdiyi "Ümumi türk tarixinə giriş" əsərində şumer və türk dillərinin genetik bağlılığı haqqında olan müddəaları qəbul edir və şumer dili ilə türk dillərinin bağlılığına dair bir neçə leksik nümunə verir. Məşhur tarixçi bu əsərində müxtəlif alimlərə istinad edərək şumer dilindəki *dingir* sözü ilə türk dillərindəki *tanrı* sözünün qohum olduğunu, şumer dilindəki *balta* sözünün

türk mənşəli olduğunu qeyd edir. Həmçinin alim şumer dili ilə türk dilləri arasında bəzi morfoloji və sintaktik uyğunluqların da olduğunu göstərir [Toğan: 1981, s.11-12]. Selahi Diker "Türk dilinin beş min ili" adlı monoqrafiyasında şumer dilinin türk dili ilə tarixi əlaqələrindən geniş şəkildə bəhs etmisdir (Diker, 2000). İndiyə qədər Türkiyədə şumer dilinə aid bir neçə lüğət və monoqrafiya çap olunmuşdur. Bu lüğətlərdən birinin müəllifi Nafiz Aydındır. O, Antalyada 2000-ci ildə "Sümerce dil bilgisi" kitabını, 2001-ci ildə "Sümerce ve Akkadca işaret listesi" adlı lüğət nəşr etdirmişdir. Nafiz Aydının müəllifliyi ilə 2013-cü ildə Ankarada Türk Dil Qurumu tərəfindən nəşr olunan "Sümerce-Türkçe Sözlük"də şumer və akkad dillərinin lüğət tərkibinə dair onlarla söz verilmiş və onların semantikası izah edilmişdir. Müəllif əsərin əvvəlində şumer dili, onun ləhcələri və tədqiqatçıları haqqında geniş məlumat vermişdir [Aydın: 2013, s.9-28]. İndiyə qədər türkologiyada Qafqazda yaşayan türkdilli xalqlardan olan qaraçay-balkarların dili ilə də şumer dili arasındakı leksik paralelliklərlə bağlı araşdırmalar aparılmışdır. Belə ki, qaraçay-balkar türkoloqu İ.M.Miziyev "Şumerlər itibmi?" adlı yazısında qaraçay-balkar dili ilə şumer dili arasında 38 leksik paralelin uyğun gəldiyini göstərir. İ.M.Miziyev göstərir ki, şumer-türk bağlılığını yalnız dil faktları deyil, eləcə də arxeoloji araşdırmaların nəticələri də sübut edir [Мизиев:1986, s.8-15].

Azərbaycan dilçiliyində A.Məmmədovun, F.Cəlilovun, Q.Qeybullayevin, Y.Yusifovun, T.Hacıyevin, Q.Kazımovun, N.Xudiyevin, B.Xəlilovun, R.Eyvazovanın, E.Quliyevin, B.Məhərrəmlinin, Ə.Tağıoğlunun, İ.Sadıqın və T. Azərtürkün araşdırmalarında şumer-Azərbaycan leksik paralellikləri mövzusu öz əksini tapmışdır. Azərbaycanda şumer-türk bağlarına aid ilk tədqiqatlar tanınmış yazıçımız Yusif Vəzir Çəmənzəminlinin adı ilə bağlıdır. Belə ki, XX əsrin 20-ci illərində Fransada mühacirət həyatı yaşamış görkəmli ədib Fransada 1928-ci ildə şumer – türk əlaqələri ilə bağlı bir məqalə dərc etdirmişdi. Şumerlər haqqında kifayət qədər bilgiyə malik olan Yusif Vəzir Çəmənzəminli Azərbaycan ədəbiyyatı tarixində ilk fəlsəfi roman olan "Qızlar bulağı" əsərində şumer tanrılarının adlarını çəkmişdir [Sadıq: 2017, s.28-31]. Aydın Məmmədov 1983-cü ildə "Azərbaycan dilinin erkən tarixinə dair materiallar. Şumer-türk leksik paralelləri" adlı məqaləsində onlarla şumer-türk leksik paraleli təqdim etmiş və bu sözlərin eyni kökdən nəşət etdiyini sübut etmişdir [Məmmədov: 1983, s.5 – 24]. Aydın Məmmədov 1985-ci ildə yazdığı "Türk samitləri: anlaut və kombinatorika" adlı monoqrafiyasında şumer və türk dillərindəki fonetik və leksik uyğunluqlardan bəhs etmişdir. O, şumer dilindəki *udu* "qoyun", *ud* "gün", *udı* "yuxu", *zaq* "kənar, qıraq", *zal* "parlamaq", *sar* "yazmaq" sözlərinin türk dilində analoji variantlarının olduğunu göstərmişdir. Aydın Məmmədov həmin monoqrafiyada 20-ə qədər şumer-türk leksik paraleli göstərmişdir: "Şumer uru "ailə bağı, qohumluq" – türk *ur "ailə", şumer ur "məhsul yığmaq" - türk or "məhsul toplamaq", şumer ur "qazmaq" – türk or "qazmaq", şumer uru "şəhər" – türk *or "istehkam", şumer ur "dam" – türk örtük, şumer uqu "doğmaq" – türk *ok , uk "doğmaq", şumer uq, uqun, uku "xalq, əhali, camaat" – türk ok "nəsil", şumer uqu, uqun – türk *ök "ana", şumer uqu

“yuxarı”, şumer qum “tikinti material” türk qum, şumer dur - türk tür “durmaq”, şumer hül “şənlik”- türk kül- “gülmək”, şumer du “ittiham” - türk de “söyləmək”, şumer udu “qoyun” - türk ud “inək”, şumer ud “gün” – türk öd “zaman”, şumer udı “yuxı” – türk uzu “yuxu”, şumer zaq “kənar, qıraq” - türk yak “kənar”, şumer zal “parlamaq” - türk yal “parlamaq”, şumer zar “sürümək” - Azərb.dial. yor “toxumaq”, şumer sar “yazmaq”- türk yazmaq” [Мамедов: 1985, s.35-41].

Firudin Cəlilov şumer-türk bağlarını dil kontaktları ilə bağlayır. Türkoloq “Dil ailəsi və dil ittifaqı” adlı yazısında qeyd edir ki, qlottogenez baxımından fərqli olan türk və monqol xalqları genetik baxımından qohum deyil. Bu dillər arasında əlaqə m.ö. II- m.s. I minillikləri əhatə edən və 3 min il mövcud olmuş yanaşı və iç-içə yaşamağın nəticəsidir. Eyni sözləri türk-şumer paralelləri haqqında da demək olar. Belə ki, bu dillərdə ayrı-ayrı qrammatik və leksik paralellərin ortaya çıxmasını m.ö. IV-II minillikdə şumerlərlə kontaktda olmuş subar, kəngər, quti və turuk boylarının dili ilə izah etmək mümkündür. Monqol-türk əlaqəsində olduğu kimi, şumer-türk əlaqəsini də dil ittifaqı hesab etmək olar [Ağasıoğlu: 2005, s. 211]. Digər Azərbaycan alimlərinin fikrincə isə, şumer dilinin mənşəyi məhz türklərlə bağlıdır. Azərbaycan tarixçisi Yusif Yusifov yazır ki, şumer dili nə morfoloji, nə də qrammatik cəhətdən türk dilləri ilə maddi qohumluq, yəni eynimənşəlilik təzahür etmir. Altay-türk sözləri şumer dilinə çox yaxın təmas və ünsiyyət vasitəsilə düşə bilərdi. Bu da şumerlərin İkiçayarasına gəlişi və məskunlaşması zamanı baş verə bilərdi. Bununla da, türk dillərinin tarixi daha qədimlərə gedib çıxır və həm də Ön Asiyanın ərazisi ilə bağlıdır [Yusifov: 2007, s.56]. İ.Kaneva şumer dilinin erqativ quruluşa malik olduğunu söyləyir [Канева: 2006, s.27]. Beləliklə, o, İ.M.Dyakonovun bu haqda fikrini dəstəkləyir. Halbuki Q.Kazımov bu fikri elmi arqumentlərlə təkzib etmişdir. İ.Kanevə özü də qeyd edir ki, şumer dilində işlənən feillərin şəxsə görə dəyişməsi zamanı erqativ quruluşa uyğun gəlmir, erqativlik qaydası pozulur. O, erqativliyin şumer dilində işlənən əvəzliklər şəxsə görə dəyişəndə də pozulduğunu göstərir (Канева: 2006, s.27-29). Beləliklə, İ.Kaneva öz fikrini dolayısıyla təkzib etmiş olur. *Şumer* sözünün mənşəyi, etimologiyası haqqında müxtəlif ehtimallar, fərziyyələr mövcuddur. Çox zaman türkologiyada bu söz *sub-yer* şəklində izah olunur. Bəzən *Sibir* toponimi və qədim türk tayfalarından olan *sabir* etnonimi də bu sözlə əlaqələndirilir.

Yusif Yusifovun fikrincə, şumerlərin hind-Avropa və Altay-prototürk tayfaları ilə ünsiyyətdə olması fərziyyəsi də müəyyən leksik paralellər əsasında irəli sürülmüşdür. Şumer dilinin heç bir qədim və müasir dil ilə maddi qohumluğu müəyyən edilməmişdir. Şumer dili leksikası daha çoz türk dillərinin leksemləri ilə müqayisə edilmişdir [Yusifov: 2007, s.56]. Təsadüfi deyil ki, indiyə qədər Azərbaycan dilçiliyində qədim dillərdən ən çox şumer-Azərbaycan leksik paralelliyindən bəhs olunmuşdur. Azərbaycan tarixçilərindən ən çox Qiyasəddin Qeybullayev şumer-Azərbaycan əlaqələrindən bəhs etmişdir. O, “Azərbaycan türklərinin təşəkkül tarixindən” adlı monoqrafiyasında və “Azərbaycanlıların etnogenezi” adlı monoqrafiyasında bu qədim əlaqələrdən geniş şəkildə bəhs

etmişdir. Q.Qeybullayev qədim Azərbaycan toponimlərinin, etnonimlərinin və antroponimlərinin etimoloji təhlilində ən çox şumer dilinin materiallarına istinad etmişdir [Qeybullayev: 1994, s.42-63]. Məsələn, lullubi etnoniminin etimoloji izahını verən Q. Qeybullayev bildirir ki, ehtimal ki, lullubi şumer dilində formalaşmış və onlardan bu ad başqa qonşu xalqlara da keçmişdir. Şumercə be-"cənab", "hökmdar", sözü qədim türkcə bi, biy –"bəy" sözü ilə eynidirsə, onda, ümumiyyətlə, lullubi, sunbi, (subi) kaspi, skif və qədim türk etnonimlərindən bi, pi komponentləri türkmənşəli sayıla bilər [Qeybullayev: 1994, s.56].

Musa Adilov yazır ki, qədim türk dillərinə məxsus çoxlu söz və ifadələrə e. ə. IV-II minilliklərdə mövcud olan Şumer dilində daha çox rast gəlmək mümkündür. Müasir İraq ərazisində yaşayan qədim şumerlər qüdrətli dövlət yaratmış, mixi yazı sistemini icad etmişdilər. Hazırda Şumer-Azərbaycan əlaqələri problemi çox mühüm nəzəri və tətbiqi əhəmiyyət kəsb edir. "Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatıdır (Y.V.Çəmənzəminli). Belə olduqda qədim şumerlərə məxsus bir çox əfsanələrin, əsatiri görüşlərin, ayrı-ayrı idiomatik ifadələrin müasir Azərbaycanda yaşamaqda davam etməsi diqqəti cəlb etməyə bilməz" [Adilov: 2019, s.10]. Afad Qurbanov "Ümumi dilçilik" əsərində yazır ki, şumerlərin dili haqqında da bir sıra fikirlər söylənilmişdir. 1938-ci ildə şumer dilini ilk dəfə türk dilləri ilə əlaqələndirməyə cəhd göstərilmişdir. Bu dilin Qafqaz dilləri ailəsinə daxil etmək istəyənlər də vardır. Ç Loykotka bu fikri, sadəcə olaraq, fantaziya hesab edir və şumer dilinin Qafqaz dilləri ilə əlaqəsi olmadığını qeyd edir. Tarixi materiallardan aydın olur ki, şumer dilinin leksik sistemini bir hecalı sözlər təşkil etmişdir. Bu xüsusiyyət həmin dili Altay dilləri ailəsinə yaxınlaşdırır. Bu dil öz xüsusiyyətinə görə aqlütinativ tipli dillərdəndir. Lakin bu dildə bəzi sözönü şəkilçilər də vardır [Qurbanov: 1989, s.489].

2013-cü ildə Nazim Hüseynovun Jalə Məmmədova ilə birgə yazdıqları "Türk dillərinin genealogiyası. Şumer və türk leksik paralellikləri" kitabı da bu sahədə yazılmış ən yaxşı işlərdən biri sayıla bilər. Həmin kitabda 1088 şumer sözünün izahı verilmişdir. Müəlliflər qeyd edirlər ki, şumer və türk dillərinin qohumluğunun müəyyənləşdirilməsində adların sintaktik və semantik strukturlarındakı oxşarlıq, həmçinin onların məzmun və həcmlərindəki paralelliklər aparıcı rola malik olur [Hüseynli, Məmmədova: 2012, s.22]. Bu kitbda kifayət qədər zəngin müqayisələr aparılmışdır. Əsərdə 1088 şumer sözünün analoji türk sözləri ilə müqayisəsi nəticəsində əldə olunan elmi nəticələr bu genetik bağların təsadüfi olmadığını bir daha sübut edir. Müəlliflər haqlı olaraq bu nəticəyə gəlirlər ki, şumer və türk dillərinin genetik bağlılığı onların leksikonuna daxil olmuş sözlərin yaxınlığı və oxşarlığı fonunda həllini tapa bilməz. Burada sözlərin sintaktik və semantik oxşarlığı əsas rol oynaya bilməz. Məsələn, şumerlərdə və Azərbaycan türklərində *aş* sözünü müqayisə edək. Bu söz fonetik baxımdan eyniyyət təşkil edir. Semantik cəhətdən yanaşdıqda isə fərqli mənalar verdiyini görərik. Azəri türklərində *aş* sözü plova işarədir. Şumerlərdə isə bir tərəfdən, arzu və istəyi, digər tərəfdən isə, lənət və qarğışı ifadə edir. Yaxud başqa bir misal: hər

iki dildə istifadə olunan *ab* sözünü götürək. Bu söz də fonetik quruluşuna görə oxşardır. Semantik baxımdan da müəyyən oxşarlıq özünü göstərir. Şumerlərdə ab dəniz, pəncərə, ata, inək, mal-qara anlamlarında işlənir. Azəri türklərində isə bu söz su, göz yaşı mənasını verir" [Hüseynli, Məmmədova: 2012, s.30].

Azərbaycanda şumer-türk əlaqələrinin öyrənilməsində folklorşünas-alim İslam Sadıqın da böyük xidmətləri vardır. İ.Sadıq qeyd edir ki, digər xalqların mifologiyasında rast gəlinən dünyanın üçlü modelinin də ilkin qaynağı şumer mətnləri olmuşdur. Şumerlər Tanrıya Dingir deyirdilər. Dingir / Tingir / Tenqri /- Tanrı eyni sözdür. Bunu inkar etmək mümkün deyil. Şumerlər göyü bütövlükdə Tanrı kimi təsəvvür edirdilər. Tanrı Anın adının göy, səma mənası da bu fikri təsdiqləyir. Adın işarəsi olan ideoqramı An, Tanrı, göy, səma, həm də ulduz kimi oxunur (Sadıq: 2020, s.16). O, "Şumer tanrı adlarının türk dilində semantik açımı" adlı məqaləsində şumer dilində işlənən Ab, An, Enki, Ninki, Ninlil, Araz, İştar, Baba / Bau, Xıdır, Utu, Ayya, Nannar, Dumuzu / Tammuz, Uttu, Nerqal, Ereşkiqal, Erra, Ninti, Nammu panteon adlarının türk mənşəli olduğunu iddia edir (Sadıq: 2011, s.56 - 62). İslam Sadıqın 2020-ci ildə nəşr olunan "Tanrı dili, şumer dili, türk dili" adlı monoqrafiyasında şumer və türk dillərində işlənən 1000-ə qədər sözün uyğunluğu təsbit olunmuşdur. Həmin monoqrafiyada müəllif şumer dili ilə türk dillərinin qohumluğundan bəhs edir [Sadıq: 2020, s.100-106]. İ.Sadıq "Göy və tanrı, göytürk və Göy tanrı terminləri haqqında" (şumer və türk epik mətnləri əsasında) adlı məqaləsində Tanrı sözünün "göy və yaradan", eyni zamanda, paralel olaraq şumer mifologiyasında da *An* teoniminin "göy və Tanrı" anlamlarını ifadə etməsinin təsadüfi olmadığını bildirir və bu qənaətə gəlir ki, bunlar eyni xalqın təfəkküründən izləridir. Alim yazır: "Şumer və türk teoqonik düşüncəsində tanrı və Göyün eyniləşdirildiyini bilirik. Göyün ucalıq rəmzi olduğu da bəllidir. Ucalıq isə tanrıya xasdır. Başqa sözlə desək, ucalıq deyəndə Göy, Göy deyəndə tanrı yada düşür" [Sadıq: 2013, s.28].

Qeyd edək ki, dünyanın ən qədim dilləri sırasında birinci yeri tutan şumer dili ilə türk dillərini yaxınlaşdıran iki əsas əlamət var. Bunlardan biri türk dilləri kimi qədim şumer dilinin də iltisaqi quruluşa malik olmasıdır. İkincisi isə, şumer dilində türk dilləri ilə analogiya təşkil edən leksik paralellərin digər dillərlə müqayisədə həddindən artıq çox olmasıdır. 2019-cu ildə nəşr olunan Tariyel Azərtürkün "Türkün və türk dilinin mənşəyi" adlı ikihissəli monoqrafiyada şumer dilinə aid mixi yazılardakı faktların Azərbaycan dili ilə uyğunluqları bir daha sübut olunur. Bu monoqrafiyada Tariyel Azərtürk yüzlərlə şumer sözünün Azərbaycan dilindəki sözlərlə homogenliyini isbat edir [Азертюрк**:** 2017, c.1, s.86-737; c.2, s.741-1297]. Roza Eyvazova "Şumerlərin mənşəyi və dili haqqında" məqaləsində şumer dili haqqında məlumat verərək bu qədim dilin genezisi problemini şərh etmişdir (Eyvazova: 2003, s.126-138).

Şumer dilini xüsusi bir dil qrupu kimi təbliğ etmək, əslində, bu dilin türk dilləri ilə qohumluğunu görmək istəməyən alimlərin qəsdən uydurduğu fikirlərdən başqa bir şey deyil. Çünki ətraflarında hind-Avropa və sami mənşəli xalqlar olan

şumerlərin dili onlarla qohum deyildisə, deməli, Ön Asiyanın ən qədim dillərindən olan türk dilləri ilə bağlantısı var. Türk dillərinin qədimliyi məsələsinə həmişə qısqanclıqla yanaşan hind-Avropaşünaslar, təbii ki, hər zaman şumer - türk genetik bağlarını inkar etməyə cəhd göstərirlər.

ƏDƏBİYYAT:

1. Adilov, M.İ. Əsərləri: [10 cilddə] / M.İ.Adilov – Bakı: Elm və təhsil, – c.6. – 2019. – 456 s.
2. Ağasıoğlu, F.A. Prototürk dialektləri larinqal nəzəriyyə işığında // Azər xalqı. – Bakı: 2005. – s.213 – 216.
3. Eyvazova, R. Şumerlərin mənşəyi və dili haqqında //– Bakı: Tədqiqlər, – 2003. №3, – s.126-138.
4. Qeybullayev, Q.Ə. Azərbaycan türklərinin təşəkkül tarixindən. Bakı: Azərnəşr, 1994, 248 s.
5. Qurbanov, A. Ümumi dilçilik:[2 cilddə] / A.Qurbanov.– Bakı: Maarif, – c.2.–1989. – 568 s.
6. Məmmədov, A.M. Azərbaycan dilinin erkən tarixinə dair materiallar. Şumer-türk leksik paralelləri. – Bakı: Azərbaycan filologiyası məsələləri, – 1983. I buraxılış, – s.5 – 24.
7. Məmmədov, N. Türk dillərinin geneologiyası: şumer-türk leksik paralelləri / N.Məmmədov, J.Məmmədova. – Bakı: Nağıl evi, – 2012. – 356 s.
8. Məmmədov, N. Türk dillərinin geneologiyası: şumer-türk leksik paralelləri / N.Məmmədov, J.Məmmədova. – Bakı: Nağıl evi, – 2012. – 356 s.
9. Sadıq, İ. "Göy və tanrı, göytürk və Göy Tanrı terminləri haqqında" (şumer və türk epik mətnləri əsasında). – Bakı: Türkologiya, – 2013. №1, – s.23-31.
10. Sadıq, İ. Şumer Tanrı adlarının türk dilində semantik açımı // – Bakı: Türkologiya, – 2011.№1, – s.56 – 62.
11. Sadıq, İ. Şumer və türk dastanları / İ.Sadiq. – Bakı: Azərnəşr, – 2012. – 108 s.
12. Sadıq, İ. Şumerdə izim var / İ.Sadıq. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 2008. – 396 s.
13. Sadıq, İ. Tanrı dili, şumer dili, türk dili. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2020. 464 s.
14. Sadıq, İ. Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romaninda şumer Tanrı obrazları [Elektron resurs]/ URL: https://elibrary. az/docs/jurnal/jrn2017_1107.pdf
15. Süleymenov, O. Az-ya / O.Süleymenov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1993. – 304 s.
16. Yusifov, Y.B. Qədim Şərq tarixi / Y.B.Yusifov. – Bakı: Şərq - Qərb, – 2007. – 384 s.
17. Atalay, B. Türk Dilinde Ekler ve Kökler Üzerine Bir Deneme / B.Atalay. – İstanbul: Matbaai Ebuzziya,–1941. – 382 s.

18. Aydın, N. Sümerce ve Akkadca İşaret Listesi / N.Aydın. – Antalya: 2001. – 557 s.
19. Aydın, N. Sümerce dil bilgisi / N.Aydın. – Antalya: 2000. – 541 s.
20. Aydın, N. Büyük Sümerce Sözlük / N.Aydın. –Ankara: Türk Dil Kurumu Yayınları, – 2013. – 1436 s.
21. Kramer, N.S. Sümer Mitolojisi / N.S.Kramer. – İstanbul: Kabalcı Yayınevi, – 1999. – 220 s.
22. Diker, S. Türk Dilinin Beş Bin Yılı / S.Diker. – İstanbul: Töre Yayın Grubu, – 2000. – 538 s.
23. Tuna, O.N. Sumer ve Türk dillerinin tarihi ilgisi ile Türk dilinin yaşı meselesi / O.N.Tuna. – Ankara: Türk Dil Kurumu Yayınları, – 1997. – 57 s.
24. Toğan, V.Z. Ümumi türk tarihine giriş / Z.V.Toğan. – İstanbul: İstanbul Üniversitesi Edebiyat Fakültesi Yayınları, –1981. – 537 s.
25. Азертюрк, Т. Генезис тюрка и тюркского языка: на основе клинописи: в 2-х кн. / Т.1- 2. Бишкек: Улуу Тоолор, – 2017.
26. Аманжолов, А.С. Шумеро-тюркские сооветствия и изобразительные логограммы // – Berlin: Sprache, Geschichte und Kultur der Altaischen Volker , – 1974. – с.65-71.
27. Дьяконов, И.М. Языки древней Передней Азии / И.М.Дьяконов. – Москва: Восточная литература, –1967.– 492 с.
28. Кажибеков, Е.З. Глагольно-именная корреляция гомогенных корней в тюркских языках/ Е.З. Кажибеков. – Алма-Ата: Наука,– 1986. – 272 с.
29. Канева, И.Т. Шумерский язык / И.Т.Канева. – Санкт - Петербург: Петербургское востоковедение, – 2006. – 240 с.
30. Крамер, С. Шумеры. Первая цивилизация на Земле / С.Крамер.– Москва: ЗАО Центрполиграф, – 2002.– 384 с.
31. Куртенэ, Бодуэн де И.А. Избранные труды по общему языкознанию: [В 2-х томах] / Бодуэн де И.А.Куртенэ. – Москва: Изд-во Академии наук СССР, –Т.2.– 1963. – 391 с.
32. Мамедов, А.М. Тюркские согласные: анлаут и комбинаторика. / А.М.Мамедов. – Баку: Элм, – 1985. – 206 с.
33. Мизиев, И.М. Шаги к истокам этнической истории Центрального Кавказа / И.М.Мизиев. – Нальчик : Эльбрус. – 1986. – 182 с.
34. Сулейменов, О.О. Язык письма. Взгляд в доисторию – о происхождении письменности и языка малого человечества/ О.О Сулейменов. – Алматы-Рим: San-Paolo, – 1998. – 283с.
35. Старостин, С.А. Труды по языкознанию / С.А.Старостин. – Москва: Языки славянских культур, – 2007. – 920 с.
36. Йоганнес, Ф. Дешифровка забытых письменностей и языков / Ф.Йоганнес. – Москва: 1961.
37. Jagersma, H. A. Descriptive grammar of sumerian, 1955. 747 p.

38. Thomsen, M-L. The Sumerian Language. - Copenhagen: Akademisk Forlag, 1984. p.9-241.

39. Materials for a Sumerian Lexicon. By Prince John Dyneley. Publisher Leipzig : Hinrichs1868-1945. 1908.

ISSUES IN THE STUDY OF THE SUMERIAN LANGUAGE

ABSTRACT

According to the views generally accepted in world linguistics, the Sumerian language is considered one of the oldest languages. It is believed that this language is approximately five thousand years old. The Sumerian language is divided into Old Sumerian and later Sumerian (written Sumerian). The discovery of Sumerian inscriptions on clay was an important event for the study of the ancient history of world civilization. The Sumerians were one of the peoples who created one of the earliest civilizations in the history of world civilization. The inscriptions they wrote on clay tablets are considered among the earliest examples of writing. In other words, Sumerian inscriptions are regarded as the earliest examples of cuneiform writing. Sumerian inscriptions are written in the form of ideograms. Ancient Sumerian inscriptions were first deciphered and read at the end of the nineteenth century. The Sumerians once lived in Mesopotamia, in the territory located in the south of present-day Iraq.

Keywords: *Sumerian, language, research, Turkology, contact*

ВОПРОСЫ ИЗУЧЕНИЯ ШУМЕРСКОГО ЯЗЫКА

АННОТАЦИЯ

Согласно общепринятым в мировом языкознании взглядам, шумерский язык считается одним из древнейших языков. Предполагается, что этому языку около пяти тысяч лет. Шумерский язык подразделяется на древнешумерский и более поздний шумерский (письменный шумерский) языки. Открытие шумерских надписей на глине стало важным событием для изучения древней истории мировой цивилизации. Шумеры были одним из народов, создавших одну из древнейших цивилизаций в истории человечества. Надписи, которые они наносили на глиняные таблички, считаются одними из древнейших образцов письменности. Иными словами, шумерские надписи считаются первыми образцами клинописи. Шумерские надписи имеют форму идеограмм. Древнешумерские надписи впервые были расшифрованы и прочитаны в конце XIX века. Шумеры в древности проживали в Месопотамии, на территории, расположенной на юге современного Ирака.

Ключевые слова: *шумер, язык, исследование, тюркология, языковые контакты*

Baba MƏHƏRRƏMLİ*

*